# HƏMRƏYLİK GÜNÜMÜZ ƏZİZ OLSUN

Ümummilli lider H.Əliyev dünya Azərbaycanlılarının həmrəylik gününü elan edəndə bizim bu həmrəyliyə nə qədər ehtiyacımız oldugunu yaqin ki, çoxları dərindən anlamırdı. Əslində dünya Azərbaycanlılarının həmrəyliyinə bir çox tarixi səhnələrdə ehtiyacımız olub. Belə bir həmrəyliyi anlamaq, düzgün qərarlar vermək, lazım olan addımları atmaq çox zamanlar içimizdən gəlsə də onun kordinasiyası, mütəşəkkilliyi və təxribatlardan kənar olması içimizdə bir tərəddüd yaradırdı.

Nəhayət Heydər Əliyev dedi: "*Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!*" Bu cümlə milli həmrəyliyin əsas ideyasını qarşıya qoydu. Xalq və Vətən anlayışı ayrıca, müstəqil və fərdlərin maragları deyil bir millətin taleyi olaraq düşünülməlidir və yalnız o zaman Vətən azad və müstəqil olur.

Populist çıxışlar, təmtəraqlı sözlər, məclislərdə deyilən saglıqlar vətən yolunda şəhadəti qəbul etmiş ogul və qızlarımızın xatirəsini kölgədə qoymamalıdır. Milli yaddaş deyilmiş cazibədar sözləri deyil, vətən eşqi ilə yaşamış və onu əməllərində ifadə etməş övladları yaşatmalıdır.

Azərbaycan Respublikası bu gün, beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi stabilliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq müstəqil dövlətimiz var və o, dünyanın mötəbər kürsülərindən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və onu qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlətdir.

**"BELƏ BİR GÜN CƏNUBİ AZƏRBAYCAN ÜÇÜN DƏ OLACAQ".**

Azərbaycan Demokrat Firqəsi 79 ildir ki, o günü yaxınlaşdırmaq üçün vətən və xalq anlayışlarını ozünün taleyinə çevirərək mübarizəsini bir gün də olsa dayandırmayıb. Dünya Azərbaycanlılarının həmrəyliyinə bu gün heç olmadıgı qədər ehtiyacımız var. "Azadlıq, Ədalət və Milli hökumət" şuarı ilə Azərbaycanın milli azadlıq sevər övladları meydandadırlar və vətən-xalq anlayışları hər bir insanımızın taleyinə çevrilmişdir.

**Həmrəylik günümüz əziz olsun !**

**Azərbaycan Demokrat Firqəsi**